


# Tarix kimin yanında idi?

## Səttarxan, Xiyabani, yoxsa Pişəvəri?

Məhəmməd Rəhmanifər

(əvvəli ötən sayımızda)

*Səttarxanı, Şeyx Məhəmməd Xiyabani və Pişəvərini bir-birinə qarşı qoyub, birini milli qəhrəman, digərini satqın kimi təqdim edənləri həqiqətən də başa düşə bilmirəm. Şeyx Məhəmməd Xiyabani özü də Məşrutə hərəkatının liderlərindən və mübarizlərindən biri olub. O, dəfələrlə çıxışlarında Səttarxanı yüksək qiymətləndirib və başlatdığı hərəkatı Səttarxanın yolunun davamı hesab edib. Ona qoşulanların bir çoxu, o cümlədən Zeynalabdin Qiyami və Nurullah xan Yekənli kimi tanınmış mübarizlər daha əvvəldə Səttarxan hərəkatına qatılmışdılar. Həmin şəxslər bir müddət sonra Azərbaycan Demokrat Firqəsinə qatılaraq Azərbaycan Milli Hökumətinin qurucularından oldular.*

Yuxarıda çıxışından sitat gətirdiyimiz general Cəfər Kaviyan Səttarxanın döyüşçü yoldaşlarından birinin oğlu idi. Kaviyan Məşrutə qiyamı dövründə uşaq idi, lakin Xiyabani hərəkatında təsirli rol oynadı və dediyimiz kimi Azərbaycan Milli Hökumətində hərb naziri vəzifəsində çalışdı.

Azərbaycan Demokrat Firqəsinin rəhbərlərinin Səttarxana və Şeyx Məhəmməd Xiyabaniyə münasibətini yuxarıda müzakirə etdik. Bu rəhbərlər özlərini Səttarxanın və Şeyx Məhəmməd Xiyabaninin davamçısı hesab edirdilər. Onlar çox yaxşı bilirdilər ki, Səttarxanın və Şeyx Məhəmməd Xiyabaninin davamçısı olmaq onların etdiklərini eynən təkrar etmək anlamına gəlməz. Onlar çox yaxşı bilirdilər ki, daha əvvəlki rəhbərlərin davamçısı olmaqla birlikdə daha hadisələri analiz etmək, səhvləri bilmək və yeni vəziyyətə uyğun şəkildə hərəkət etmək lazımdır. Bu səbəbdən bu üç böyük hərəkat arasında ziddiyyət deyil, davamlılıq görürdülər.



### Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan Demokrat Firqəsinin qurulmasında rolu

Məşrutə hərəkatı (1905-1911), Şeyx Məhəmməd Xiyabani qiyamı (1920) və Azərbaycan Milli Hökumətinin (1945-1946) fərqli məqamlara sahib olmalarına baxmayaraq, bir ziddiyyətin olmaması və tam tərsinə, bir tarixi davamlılığın olmasına dair fikir irəli sürdük və faktlar təqdim etdik. Şeyx Məhəmməd Xiyabaninin Səttarxana baxışından və Pişəvərinin Səttarxana və Şeyx Məhəmməd Xiyabaniyə olan baxışından söz açdıq. Hər üç hərəkata qatılan insanlardan danışdıq. Tarixi sənədlərə görə, hər üç hərəkatda fəal iştirak edənlərin sayı heç də az deyil. Ancaq yazının sonunda bir məsələyə də diqqət çəkmək istəyirəm. O da Azərbaycan Demokrat Firqəsinin adıdır. Bu, Şeyx Məhəmməd Xiyabaninin istifadə etdiyi həmin ad idi.

*Demokrat Firqəsi 1908-ci ildə Məhəmməd Əmin Rəsulzadə, Seyid Həsən Tağızadə, Seyid Məhəmmədrza Müsavat və Şeyx Məhəmməd Xiyabani kimi tanınmış azərbaycanlı şəxsiyyətlərin əli ilə qurulmuşdu. 1920-ci ildə Şeyx Məhəmməd Xiyabani Təbrizdə mərkəzi hökumətə qarşı hərəkata başlayanda elə həmin adı istifadə etdi. Lakin o gündən Tehranda yaranan bu partiya İran partiyası kimi deyil, Güney Azərbaycan partiyası kimi fəaliyyət göstərməyə başladı. Həmin adın 1945-ci illərdə Pişəvəri tərəfindən yenidən istifadə etməsi heç də təsadüfi deyil. Çünki dediyimiz kimi, bu liderlər bir-birlərinin ziddi deyil, bir-birlərinin davamçısı olduğunu düşünürdülər. Deməli ki, partiyanın adı da bu qısa yazıda ortaya qoyduğumuz fikri, yəni tarixi davamlılıq fikrini dəstəkləməkdədir.*

*Məşrutə hərəkatı (1905-1911), Şeyx Məhəmməd Xiyabani qiyamı (1920) və Azərbaycan Milli Hökumətinin (1945-1946) fərqli məqamlara sahib olmalarına baxmayaraq, bir ziddiyyətin olmaması və tam tərsinə, bir tarixi davamlılığın olmasına dair fikir irəli sürdük və faktlar təqdim etdik. Şeyx Məhəmməd Xiyabaninin Səttarxana baxışından və Pişəvərinin Səttarxana və Şeyx Məhəmməd Xiyabaniyə olan baxışından söz açdıq. Hər üç hərəkata qatılan insanlardan danışdıq. Tarixi sənədlərə görə, hər üç hərəkatda fəal iştirak edənlərin sayı heç də az deyil. Ancaq yazının sonunda bir məsələyə də diqqət çəkmək istəyirəm. O da Azərbaycan Demokrat Firqəsinin adıdır...*



